# Vladimir Medinskinin yanlış müqayisəsi

## Rusiya Prezidentinin köməkçisinin açıqlaması ikitərəfli münasibətlərə xələl gətirir

Rusiya Prezidentinin köməkçisi, habelə Rusiyanın Tarix Təhsili üzrə Qurumlararası Komissiyasının sədri Vladimir Medinskinin "Russia Today" kanalına verdiyi müsahibədə Qarabağı "mübahisəli ərazi" kimi təqdim etməsi Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazi bütövlüyünə qarşı açıq hörmətsizlikdir. Bu cür bəyanatlar Rusiya rəsmilərinin Azərbaycanın suverenliyinə dair mövqeyində qeyri-müəyyənlik və ya ikili standartların mövcud olduğunu göstərir.

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan Xarici İşlər Nazirliyinin bu bəyanata dərhal və sərt reaksiya verməsi, ölkənin öz ərazi bütövlüyünü və suverenliyini qorumaq üçün qətiyyətli olduğunu nümayiş etdirir: "Təəccüblü hal odur ki, Rusiya Federasiyasının Prezidentinin köməkçisi, habelə Rusiyanın Tarix Təhsili üzrə Qurumlararası Komissiyasının sədri olan Medinski Qarabağın heç zaman mübahisəli ərazi olmadığını bilmir. Qarabağ əzəli Azərbaycan torpağıdır. Rusiya özü Qarabağı Azərbaycanın ərazisi kimi tanıyıb və tanıyır: Eyni zamanda sual doğuran məqam ondan ibarətdir ki, Minsk Qrupunun həmsədri olmuş ölkənin prezidentinin köməkçisi dövlətinin bu məsələ ilə bağlı mövqeyini ya dərk etmir, ya da dərk etmək istəmir".



Deputat qeyd edib ki, Medinski Rusiya-Ukrayna müharibəsini Qarabağda mövcud olmuş vəziyyətlə müqayisə edir. Azərbaycan heç zaman heç bir ölkənin ərazi bütövlüyünü pozmadığına görə və heç bir ölkəyə qarşı aqressiv müharibə aparmadığına görə belə müqayisə yersizdir. Azərbaycan 2020-ci və 2023-cü illərdə öz suveren və beynəlxalq birlik tərəfindən tanınmış ərazilərində Vətən müharibəsi və antiterror tədbirləri həyata keçirib. 44 günlük Vətən müharibəsi və bir gündən az davam etmiş antiterror tədbirləri Azərbaycanın tam qələbəsi və Ermənistanın məğlubiyyəti ilə nəticələnib. Beləliklə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Ermənistanın işğalına son qoyulub. "Medinskiyə tövsiyəmiz odur ki, səlahiyyətinə aid olmayan məsələlərə dair yanlış iddialar səsləndirməklə dövlətlərarası münasibətlərə xələl gətirməsin. Azərbaycan Xarici İşlər Nazirliyinin cavabı həm də beynəlxalq ictimaiyyətə Azərbaycanın bu cür təxribatlara qarşı dözümsüz olduğunu və öz hüquqlarını müdafiə etməkdə qəti qərarlığını göstərir. Medinskinin bu cür açıqlamaları Rusiya-Azərbaycan münasibətlərində gərginlik yarada və regionda sülh və sabitliyə zərər verə bilər", - deyə K.Bayramov əlavə edib.

O vurğulayıb ki, 2022-ci il fevralın 22-də Rusiya və Azərbaycan arasında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamədə tərəflər bir-birinin dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına və qarşılıqlı hörmət prinsipinə sadiqliklərini təsdiqləyiblər. Bu səbəbdən, Rusiya rəsmilərinin daha məsuliyyətli və beynəlxalq hüquqa uyğun mövqe sərgiləmələri vacibdir.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

Azərbaycan.- 2025.- 11 iyun (№118).- S.8.